Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Yanvar 2023

www.ereforms.gov.az
info@ereforms.gov.az

**Lakin indi bizim şaxələnmə barədə düşünmək, düşünmək yox, hərəkət etmək vaxtıdır.**

Azərbaycanda investisiya mühiti çox müsbətdir. Xarici və yerli investisiyalar lazımınca qorunur. Ümid edirik ki, qeyri-enerji sektoruna daha çox investisiyalar olacaq, çünki ölkəmizə qoyulan sərmayələrin əksəriyyəti neft və qaz sektoruna yönəlmişdir. Bu da təbiidir və biz bunu anlayırıq. Lakin indi bizim şaxələnmə barədə düşünmək, düşünmək yox, hərəkət etmək vaxtıdır. Buna görə də qeyri-enerji sektoruna, infrastruktura, xüsusilə nəqliyyat infrastrukturuna, bərpaolunan enerji mənbələrinə yönəlmiş investisiyalar bizim üçün prioritetlərdən biridir.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2023-cü il 18 yanvar tarixində Davosda Çinin CGTN kanalına müsahibəsindən**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 14

“Azərkosmos”a aid xidmət ixracı haqqında məlumat ____ səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 19

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ____ səh. 21

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 24

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

## 2022-ci ilin yanvar-dekabr ayları ərzində 38,1 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-dekabr aylarında qeyri-neft sektoru üzrə ixrac 3,05 milyard ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar-dekabr aylarında Azərbaycanın ümumi ixracı **38,1 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac **3,05 milyard ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci ilin on iki ayı ilə müqayisədə **12,4%** artıb.

2022-ci ilin yanvar-dekabr ayları ərzində kimya sənayesi məhsullarının ixracı 57,7%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 17,5%, alüminium və ondan hazırlanan məmulatların ixracı 15,4%, çay ixracı isə 35,6% artmışdır.

Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **912,4 milyon ABŞ dolları** təşkil etmişdir. 2022-ci ilin yanvar-dekabr ayları ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 93%-ini təşkil etmişdir. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 35,4% artmışdır.

2022-ci ilin yanvar-dekabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid (209,7 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (185,2 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (173,5 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-dekabr ayları ərzində Rusiya Federasiyasına 928,6 milyon ABŞ dolları, Türkiyəyə 713,1 milyon ABŞ dolları, Gürcüstana 228,4 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 198,5 milyon ABŞ dolları və Qazaxıstana isə 102,7 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin dekabr ayının qeyri-neft ixracı **303,5 milyon ABŞ dolları** təşkil edib. 2022-ci ilin dekabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac 105,6 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 197,9 milyon ABŞ dollarına bərabər olub.

2022-ci ilin dekabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (107,7 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (55,4 milyon ABŞ dolları) ikinci və İsveçrə (31,9 milyon ABŞ dolları) üçüncü olub.

2022-ci ilin dekabr ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (29,1 milyon ABŞ dolları) birinci, xurma (23,9 milyon ABŞ dolları) ikinci və pomidor (tomat) (16,8 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2022-Cİ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR SƏNAYE MƏHSULLARININ İXRACI
## (2021-ci ilin müvafiq dövrü ilə müqayisə ilə, faizlə)

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**912,4 mln $**

2021/2022 **+11,8%**



2021/2022 **+6,7%**

**717,5 mln $**

**194,8 mln $**

2021/2022 **+35,4%**

# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI yanvar

| Ölkə | 2022 | 2021 |
|---|---|---|
| Rusiya | 928,6 | 877,8 |
| Türkiyə | 713,1 | 675,9 |
| Gürcüstan | 228,4 | 157,5 |
| İsveçrə | 198,5 | 224,1 |
| Qazaxıstan | 102,7 | 39,9 |

# 2022-Cİ İLİN DEKABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Karbamid | 209,7 | 118,5 |
| Qızıl | 185,2 | 202,5 |
| Pambıq mahlıcı | 173,5 | 208 |
| Tomat (pomidor) | 167,6 | 160,2 |
| Metanol (metil spirti) | 131,9 | 90,1 |
| Elektrik enerjisi | 121,6 | 69,3 |
| Xurma | 113,4 | 125,9 |
| Meşə fındığı | 106,3 | 108,8 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 91,7 | 95,8 |

# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI yanvar

| | 2022 | 2021 |
|---|---|---|
| İlkin formalı polipropilen | 91,4 | 120 |
| Polimerləşmədə ilkin formalı maddələr | 81,5 | 78,3 |
| Digər yağlar və məhsullar | 79,3 | 68,4 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 64,1 | 36,4 |
| Emal olunmamış alüminium ərintiləri | 62,5 | 39,1 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 54,9 | 79,6 |
| Alma | 52 | 37,4 |
| İlkin formalı propilen sopolimerləri | 50,1 | 53,8 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 43,6 | 59 |

# 2022-Cİ İLİN DEKABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



| | 2022 | 2021 |
|---|---|---|
| Qızıl | 29,1 | 17,9 |
| Xurma | 23,9 | 34,4 |
| Tomat (pomidor) | 16,8 | 19,6 |
| Meşə fındığı | 12,7 | 13,7 |
| Pambıq mahlıcı | 12,4 | 20,3 |
| Digər yağlar və məhsullar | 11,4 | 7,5 |
| Metanol (metil spirti) | 11,2 | 13,9 |
| Karbamid | 11,1 | 25,1 |
| Emal olunmamış aşgarlanmamış alüminium | 10 | 2,2 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-dekabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Rose Servis" MMC, "Almeyvə" MMC, Şirinov Elvin Valeh oğlu, "Baku Steel Company" MMC, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Mors Trading" MMC, "STP Alüminium" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "ASK tütün" MMC, "Azəripək" MMC, "Şəki Şərab" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI yanvar



# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**






* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** «AzərGold» QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-dekabr aylarında "Azərkosmos" 26,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-dekabr aylarında "Azərkosmos" tərəfindən dünyanın **42 ölkəsinə 26,6 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos"-un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 82 faizini təşkil edib. 2022-ci ilin dekabr ayında isə "Azərkosmos" dünyanın 36 ölkəsinə **2,3 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-dekabr ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 6,5 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 6 milyon ABŞ dolları ilə Fransa, 4,3 milyon ABŞ dolları ilə Lüksemburq, 2,2 milyon ABŞ dolları ilə BƏƏ və 1,5 milyon ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA "AZƏRKOSMOS" 26,6 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Ölkə | Dəyər |
|---|---|
| Birləşmiş Krallıq | 6,5 mln $ |
| Fransa | 6 mln $ |
| Lüksemburq | 4,3 mln $ |
| BƏƏ | 2,2 mln $ |
| Pakistan | 1,5 mln $ |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

## 2022-ci ilin yanvar-dekabr ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə **2,2 milyard manatlıq** əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin dekabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **190,5 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-deakbr aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **2,2 milyard manatlıq** əməliyyat aparıblar

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR
(milyon manatla)

| | 2020 | 2021* | 2022 |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | 19,7 | 64,1 | 136,6 |
| May | 24,3 | 81,3 | 184,1 |
| İyun | 23,7 | 89,7 | 203,6 |
| İyul | 23 | 96 | 213,6 |
| Avqust | 25,6 | 105,3 | 214,6 |
| Sentyabr | 25,9 | 124,3 | 155,5 |
| Oktyabr | 24,9 | 124,4 | 149 |
| Noyabr | 23,2 | 151,1 | 158,1 |
| Dekabr | 27,9 | 171,7 | 190,5 |
| | **430,2 mln** | **1,3 mlrd** | **2,2 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 3 milyard 161 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar-dekabr aylarında Azexport.az portalına **469,9 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin dekabr ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə **45,4 milyon ABŞ dolları** təşkil edib. 2022-ci ilin dekabr ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin kərə yağı, tütün, balıq kürüsü, tikinti materialı, alma, pomidor, pambıq yağı, pambıq mahlıcı, soğan, toyuq yumurtası və s. məhsullar üstünlük təşkil edib. Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 31 dekabr tarixinə kimi (72 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **3,2 (3,161) milyard ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN DEKABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



AZEXPORT.AZ
Made in Azerbaijan

- Alma
- Kərə yağı
- Tikinti material
- Pomidor
- Soğan
- Toyuq yumurtası
- Pambıq mahlıcı
- Tütün

# 6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin yanvar ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 9,8 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2023-cü ilin yanvar ayı ərzində **123 müraciət** daxil olub. Müvafiq dövr ərzində **293 ədəd sertifikat** (75 ədəd mənşə, 2 ədəd baytarlıq, 180 ədəd fitosanitar, 36 ədəd CİTES) təqdim edilib.

2022-ci il üzrə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **269,7 milyon ABŞ dolları** təşkil edib.

2023-cü ilin yanvar ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **9,8 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidinin cecəsi, süd məhsulları, pendir, kərə yağı, konfet, limonad, nar, alma, albalı, qarışıq şirələr, nadir və itmə təhlükəsində olan bitkilərin toxum və herbariləri, təmizlənmiş, duzlanmış qoyun bağırsağı, yun örüyü

olmayan ikilənmiş camış gönlərindən aşılanmış krast olunmuş dəri, iribuynuzlu heyvanların qurudulmuş penisi, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, avadanlıq, izolyasiya məhsulları, tibbi zəli, kompüter, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında polad boru, pambıq çiyidi, süd məhsulları, meyvə şirələri, akvakultur üsulu ilə yetişdirilmiş balıq kürüsünün ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, İtaliya, Çin, Rusiya, Qazaxıstan, Malayziya, Türkiyə, ABŞ, Böyük Britaniya, İran, Belarus, Tacikistan üstünlük təşkil etmişdir.



# 2023-CÜ İLİN YANVAR AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)





# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

**61,4%**
Fitosanitar sertifikatı

**25,6%**
Mənşə sertifikatı

**12,3%**
CİTES sertifikatı

**0,7%**
Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat